*UOT 372.3/.4*

***Yeganə Xanoğlan qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-8319-8849*
https://doi.org/10.69682/arti.2024.91(4).51-55

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNTEQRATİV TƏLİM MƏŞĞƏLƏLƏRİ UŞAQLARIN NİTQİNİN İNKİŞAFINDA ƏSAS VASİTƏ KİMİ

***Егана Ханоглан гызы Мамедова***
*старший преподаватель кафедры Педагогики дошкольного образования*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ИНТЕГРАТИВНЫЕ ОБРАЗОВАТЕЛЬНЫЕ ЗАНЯТИЯ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ КАК ОСНОВНОЕ СРЕДСТВО В РАЗВИТИИ РЕЧИ ДЕТЕЙ

***Yegana Khanoghlan Mammadova***
*senior teacher at the department of Pedagogy of preschool education of*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# INTEGRATIVE EDUCATIONAL EXERCISES IN PRE-SCHOOL EDUCATION INSTITUTIONS AS A MAIN TOOL FOR THE DEVELOPMENT OF CHILDREN'S SPEECH

**Xülasə.** Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Ana dili məşğələlərində uşaqlar biliklər əsasında fikir mübadiləsi keçirir, öz fikirlərini düzgün, aydın, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri fəal lüğətlərində işlətməyə çalışırlar. Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi üçün inteqrativ məşğələlər ən yaxşı texnologiyadır. Bu o deməkdir ki, uşaqlar təlim prosesində passiv deyil, konkret materiallarla və əhatəsində olan insanlarla fəal, qarşılıqlı ünsiyyətdə olurlar. Fəal təlim metodları üzərində qurulan məşğələ ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər uşaqların sərbəst şəraitdə fəaliyyət göstərməsinə imkan yaradır və bu zaman onlar özlərinin bütün bilik, bacarıq və istedadlarını nümayiş etdirə bilmək imkanı əldə edirlər.
***Açar sözlər:*** *Məktəbəqədər dövr, nitq inkişafı, inteqrativlik, təlim, məşğələ.*

**Аннотация.** Обучение родному языку имеет большое педагогическое значение в дошкольных образовательных учреждениях. Роль обучения родному языку в системе общего образования чрезвычайно важна в определении уровня мышления детей и обеспечении пути его развития. На занятиях по родному языку дети обмениваются идеями на основе своих знаний, ищут подходящие слова, чтобы правильно, ясно и бегло выразить свои мысли, и стараются использовать слова, которые они находят в своем активном словарном запасе. Интегративные упражнения – лучшая технология развития речи дошкольников. Это означает, что дети не пассивны в процессе обучения, а активно взаимодействуют с конкретными материалами и окружающими людьми. Обучение, основанное на активных методах обучения, отличается от традиционного обучения. Эти упражнения позволяют детям действовать самостоятельно, и в это время у них есть возможность продемонстрировать все свои знания, умения и таланты.
***Ключевые слова:*** *Дошкольный период, развитие речи, интегративность, обучение, упражнение.*

*Yeganə Xanoğlan qızı Məmmədova*

**Abstract.** Mother tongue teaching is a matter of great pedagogical importance in preschool educational institutions. The role of mother tongue teaching in the general education system is extremely important in determining the level of thinking of children and ensuring its development path. In mother tongue classes, children exchange ideas based on their knowledge, look for appropriate words to express their ideas correctly, clearly, and fluently, and try to use the words they find in their active vocabulary. Integrative exercises are the best technology for developing the speech of preschool children. This means that children are not passive in the learning process, but actively interact with concrete materials and people around them. Training based on active learning methods differs from traditional training. These exercises allow children to act freely, and at this time they have the opportunity to demonstrate all their knowledge, skills and talents.

***Keywords:*** *Preschool period, speech development, integrativeness, training, exercise.*

Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Ana dili məşğələlərində uşaqlar biliklər əsasında fikir mübadiləsi keçirir, öz fikirlərini düzgün, aydın, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri fəal lüğətlərində işlətməyə çalışırlar. Bu məqsədlə tərbiyəçilər səylə çalışmalı, məşğələlərdə nitq inkişafının müxtəlif cəhətlərini-söz yaradıcılığını, nitqin qrammatik cəhətini və rabitəli nitqinin qarşılıqlı inkişafının əlaqələndirilməsini təmin etməlidirlər.

İkinci kiçik qrupdan başlayaraq uşaq bağçalarında nitq inkişafına həsr olunmuş xüsusi məşğələlər təşkil edilir. Belə məşğələlərdə əsas məqsəd uşağın həmin dövrədək ailədə, körpələr evində, uşaq bağçasında öyrəndiklərini sistemə salmaq, onun nitq inkişafı sahəsindəki qabiliyyətini artırmaq və bu prosesi sürətləndirməkdir. Məşğələlər uşağın məsuliyyətini artırır, onu kollektivlə birlikdə dinləməyə, yoldaşlarının nitqinə fikir verməyə, onlarla söhbət etməyə, onların qarşısında şeir oxumağa, nağıl danışmağa alışdırır. Tədqiqatlar göstərir ki, məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafında ən yaxşı və səmərəli yanaşma məşğələlərin inteqrativ qurulmasıdır. Bunun üçün işin müvafiq qaydada planlaşdırılması əhəmiyyətli hesab edilir. Məşğələnin inteqrativ qurulması onun keyfiyyətinə bir neçə cəhətdən təsir göstərir:

- Məşğələlərin inteqrasiyası onların saylarının azalması ilə nəticələnir. Məzmunca yaxın məşğələlər sintez edilir.
- Məşğələlərin inteqrasiyası həftəlik saatların minimum səviyyəyə endirilməsi imkanını yaradır. Bu isə təlim yükünün-məşğələlərin sayının azalmasına gətirib çıxarır.
- Uşaqların həyati əhəmiyyəti olan bilik, bacarıq və vərdişlər qazanmalarına, onların şəxsiyyət kimi formalaşması üçün ən zəruri praktik işlərin həyata keçirilməsinə imkan yaranır.

İnteqrativlik təlim sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçinin vəziyyətini, fəaliyyət istiqamətini dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün düşüncəsi, tərbiyəçilər isə uşağın inkişafı üçün şərait təşkilatçısı olur**.**

Hər bir tərbiyəçi bilməlidir ki, uşağın söz ehtiyatı onun təsəvvürlərinə müvafiq olmalıdır. Bəzən uşaqlarda kifayət qədər təsəvvür olur, lakin onları ifadə edən sözlər olmur. Bəzən əksinə, uşaq canlı təsəvvürə əsaslanan çoxlu söz bildikdə onların mənasını dərk etmədən işlədir. Bu halın aradan qaldırmaq üçün tərbiyəçilər məşğələləri planlı aparmalı, əşya, hadisə haqqında uşaqda geniş təsəvvür yarandıqdan sonra, həmin sözləri uşağın fəal nitqinə daxil etməlidirlər. Deməli, biz məşğələ prosesində uşaqların nitqinin inkişafı üçün iki halı öyrətməliyik.

**1.** Söz və cümlələri başa düşmək qabiliyyəti.

**2.** Sözün formasını, söz birləşmələrini və cümlələri nitqdə işlətmək qabiliyyəti.

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə təşkil edilən məşğələlərin məzmununu üç mərhələyə bölmək olar:

***Birinci,*** uşağın söz ehtiyatının get-gedə zənginləşməsi, yəni sözlər öyrənib bu sözlərdən istifadə etməsi;

***İkinci,*** nitqin fonetik cəhətdən inkişaf etməsi, yəni uşağın səsləri düzgün tələffüz etmək xüsusiyyətinin inkişafıdır. Bu bir tərəfdən səsləri düzgün eşitmək, digər tərəfdən isə səsləri düzgün tələffüz etməkdə ifadə olunur;

***Üçüncü,*** uşaq nitqinin qrammatik cəhətdən təkmilləşməsi, danışıq hissinin inkişaf et-

məsidir. Bu prosesin düzgün qurulması, uşaqların yaşına və anlaq səviyyəsinə uyğun təşkili, məktəbəqədər yaş dövrünün sonunda onların aşağıdakı nitq bacarıqlarına yiyələnməsinə imkan verir.

Müasir məşğələlər birtipli struktura malik deyil. Buna görə də, hər bir tərbiyəçi özü üçün onun konseptual əsasına uyğun daha əlverişli iş və təhlil forması seçir. Həmçinin məşğələyə elə tələblər verilir ki, tərbiyəçilər iş zamanı onları mütləq nəzərə almalıdırlar. Uşaqlarda hər şeyi bilmək həvəsi oyatmaq, ona ətraf aləmin müxtəlif sahələri haqqında biliklər vermək son dərəcə vacibdir. Bunun üçün məşğələlərin məzmunu elə qurulmalıdır ki, uşaqlarda həvəs yaransın, diqqətlilik, tərbiyəçini məşğələnin sonunadək dinləmək, öz fikirlərini düzgün və səlis ifadə etmək həvəsi oyansın. Ona görə də məşğələdə fərdiləşdirmə üçün optimal şərait yaradılır və bütün qrup üçün anlaşıqlı olan təlim metodikası ilə aparılır.

Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi üçün inteqrativ məşğələlər ən yaxşı texnologiyadır. Bu o deməkdir ki, uşaqlar təlim prosesində passiv deyil, konkret materiallarla və əhatəsində olan insanlarla fəal, qarşılıqlı ünsiyyətdə olurlar. Fəal təlim metodları üzərində qurulan məşğələ ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər uşaqların sərbəst şəraitdə fəaliyyət göstərməsinə imkan yaradır və bu zaman onlar özlərinin bütün bilik, bacarıq və istedadlarını nümayiş etdirə bilmək imkanı əldə edirlər.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim uşaqların yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman uşaqlar tərbiyəçinin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Hazırda təhsil proqramında hər bir məşğələ uşaqlar üçün təfəkkür, eləcə də intellekt məkanına çevrilməlidir. Bu məqsədlə cəmiyyətin hərtərəfli inkişafında müasir təlim metodlarının, interaktiv təlim texnologiyalarının düzgün və məqsədyönlü tətbiqi başlıca şərt hesab edilir. Bu məqsədlə təlim-tərbiyə prosesinin düzgün qurulmasında yeni kirikulumlara uyğun aşağıdakı prinsiplərin əsas götürülməsi zəruri hesab edilir:

**1.** Pedaqoji prosesin tamlığı.

**2.** Təlimdə bərabər amillərin yaranması.

**3.** Şagirdyönlülük.

**4.** İnkişafyönlülük.

**5.** Fəaliyyəti stimullaşdırıcı, dəstəkləyici mühitin yaradılması.

Standartlar nəticəyönlü və şagirdyönlü olduğundan onların reallaşmasında interaktiv metodlardan istifadə edilməsi məqsədəuyğun hesab edilir. Hazırda təlimin qarşısında duran ən mühüm vəzifə uşaqların idrak fəallığına, təşəbbüskarlığına, öz fəaliyyətə nail olmaq, onların təfəkkürünü inkişaf etdirməkdir. Bu baxımdan interaktiv təlim metodları müasir illərdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim uşağın təkcə yaddaşının yeni elmi biliklərlə zənginləşdirilməsi deyil, həm də təfəkkürünü inkişaf etdirilməsinə, bacarıq və vərdişləri əldə olunmasına yönəldilir. Onlar yeni təlim metodlarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb və nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etdirir, nəticə çıxarmağı, ümümiləşdirmələr aparmağı öyrənirlər.

İnteraktiv təlim texnologiyaları tədris və dərketmə təşkilinin və idarə edilməsinin elə üsullarıdır ki, onlar üçün aşağıdakılar səciyyəvidir:

**1.** Müəllim tərəfindən problem situasiyanın yaradılması.

**2.** Problemin situasiyanın həlli prosesində şagirdlərin idrak fəallığının stimullaşdırılması.

İnteraktiv təlim zamanı birgə təşkili fəaliyyəti təşkil olunur. Bununla yanaşı hər bir uşağın öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Eyni zamanda qrupdakı zəif uşaqlarda müzakirədə fəal iştiraka qoşulur, məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində bir-birini dinləməyi alışırlar. İnteraktiv təlim prosesində biliklərin yiyələnmə prosesində həm də uşaqlarda iradi, əxlaqi, estetik, mədəni, hüquqi, ekoloji, iqtisadi,

digər akseoloji dəyərlər yönümündə inkişaf etdirir və formalaşdırır**.** İnteraktiv təlimi səciyyələndirən cəhətlər bunlardır: problem situasiyanın köməkliyi ilə idrak müstəqilliyi; öyrənmə prosesin kompüter idarə olunması, ümumi bacarıqların yaranması; idraki, rollu və didaktik oyunların köməyi ilə şagirdlərdə fəallığın və yaradıcılığın inkişafı, qabaqlayıcı təlim metodlarından istifadə də fəaliyyət qaydasını, biliklərin praktik tətbiqi qaydasının öyrədilməsi, tədqiqatçılıq tapşırığı, təhsilin özünütəhsilə keçməsini təmin edən metodlardan istifadə; yaradıcılıq inkişafını təmin edən metodlardan istifadə.

İnteraktiv təlim uşaqların fəal fəaliyyətini təmin etməklə problemli şəraitin yaradılmasına, əməkdaşlığına, təfəkkürün müstəqilliyinə, sərbəstliyinə, uşaqların fəal dərketmə mövqelərinə, biliklərin müstəqil əldə edilməsinə, yaradıcı tətbiqinə, sərbəst fikir söyləməsinə, fikrin müzakirə edilməsinə, sübuta yetirilməsinə əsaslanır. İnteraktiv təlim metodlarını səmərəli təşkil etmək üçün ilk növbədə müəllimin planlaşdırma bacarığı olmalıdır. O, dərs dediyi fənn üzrə bütün mərhələləri aydın təsəvvür edə bilməli, onlara aid prespektiv və cari planlar hazırlamağı bacarmalıdır. Dərs planlaşdırmağı hansı təlim standartlarının reallaşdırılmasının müəyyənləşdirilməsi, ona uyğun təlimin məqsədi, müvafiq forma və üsullar seçilməlidir. İnteraktiv təlim zamanı istifadə olunan üsullar təlim standartlarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Pedaqoji ədəbiyyatlarda nisbətən geniş yayılmış interaktiv təlim üsullarını nəzərdən keçirək; Beyin həmləsi, BİBÖ, Klaster (şaxələndirmə), Söz assosiasiyaları, Söz zənciri, Qar topası, İnsert, Diskussiya, Rollar üzrə oyunlar, Venn diaqramı, Karusel, Ziqzaq.

Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi sahəsində yol veriləcək kiçik xətalar sonralar çox ciddi, qarşısı alınmaz nöqsanlar kimi özünü büruzə verə bilər. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan uşaqları müstəqil fəaliyyətə hazırlamaq lazımdır. Bu, o dövr üçün tərbiyə işinin çətinliyindən daha çox həmin sahədə düşünülmüş, sistemli və təsirli işin aparılması ilə izah olunmalıdır. Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi sahəsində müvəffəqiyyət qazanmaq üçün uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması əsas amillərdən biridir.

Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər məşğələləri əsasən “Məktəbəqədər təhsil proqramı (kurikulum)” əsaslanan inteqrativlik prinsipinə uyğun təşkil etməlidirlər. İnteqrativlik uşaqlar üçün bütün inkişaf sahələrində öyrənmə mühiti yaradır. Müasir məşğələlər bir tipli struktura malik deyil. Buna görə də hər bir tərbiyəçi özü üçün məşğələnin konseptual əsasına uyğun daha əlverişli iş və təhsil forması seçir. Tərbiyəçi nitq inkişafı üzrə təşkil edilən məşğələləri digər məşğələlərlə inteqrasiya edərək uşaqların fəal lüğət ehtiyatının zənginləşməsinə kömək etməlidir. Tədqiqatlar göstərir ki, inteqrativlik məktəbəqədər yaşlı uşaqların inkişafında ən yaxşı və səmərəli yanaşmadır. Məşğələlərin inteqrasiyası həftəlik saatların minimum səviyyəyə endirilməsi imkanını yaradır. Bu isə təlim yükünün-məşğələlərin sayının azalmasına gətirib çıxarır. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər “subyekt-subyekt” formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. Biz pedaqoq və tərbiyəçilər inamla deyə bilərik ki, gələcəyimiz həqiqi insanın necə olacağından, bu isə bütövlükdə bizim uşaqların şüuruna nə kimi fikir və ideyalar yükləməyimizdən asılıdır.

**Problemin aktuallığı.** Məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlığında xüsusi əhəmiyyətə malikdir. Gənc nəslin, o cümlədən məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsəd hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan hazırda məktəbəqədər müəssisələrdə uşaqların tərbiyəsini müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir. Bütün bu prosesləri nəzərə alaraq məktəbəqədər təhsil müəssisələrində inteqrativ təlim məşğələləri uşaqların nitqinin inkişafında əsas vasitə kimi bu və ya digər şəkildə tədqiq edilsə də, bu sahədə onun məqsəd və vəzifələri öyrənilməmiş, ümumiyyətlə açıq qalmışdır. Apardığımız tədqiqat bu problemin öyrənilməsinə və həlli yollarının araşdırılmasına həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Bu məqalədə, ilk dəfə olaraq, məktəbəqədər təhsil müəssisələrində inteqrativ təlim məşğələləri uşaqların nitqinin inkişafında əsas vasitələrdən biri kimi araşdırılmış, məqsəd və vəzifələrinin əhəmiyyəti və həlli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən təkliflər və nəticələr, məktəbəqədər təhsil müəssisələrində inteqrativ təlim məşğələləri uşaqların nitqinin inkişafında əsas vasitə kimi müvəffəqiyyətlə həyata keçirilməsini təşkil etmək və uşaqların inkişafında nəzərə alınmasına köməklik göstərməkdir. Bu məlumatlar vasitəsilə istər tərbiyəçilər, istərsə də valideynlər uşaqların inkişafı, tərbiyəsi və təhsilini müvəffəqiyyətlə həyata keçirilməsini təşkil edə bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Proqramı (Kurikulum). -Bakı: 2022, -54 s.
2. Cəfərova, L.K. Uşaq bağçalarında gəzintilərin təşkili. / *L.K. Cəfərova.* -Bakı: Letterpress -2019, -99 s.
3. Əsgərova, R.Ə. Məktəbəqədər yaşlı uşaqların rabitəli nitqinin inkişafı. / R.Ə. Əsgərova. -Bakı: Hərbi, -2006. -158 s.
4. Hacıyeva, Ə.H. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafı. / Ə.H. Hacıyeva. -Bakı: Maarif, -1992. -107 s.
5. Kərimov, Y.Ş. Uşaq məktəbə gedir. / Y.Ş. Kərimov. -Bakı: Maarif, -2002. -144 s.
6. Kərimov, Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. / Y.Ş. Kərimov. -Bakı: «RS Poliqraf», -2009. -319 s.
7. Məmmədova, Y.X. Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları. / Y.X. Məmmədova. -Bakı: ADPU-nun nəşri, -2019. -260 s.
8. Məmmədova, A.M. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. / A.M. Məmmədova. -Bakı: ADPU, -2007. -156 s.

**E-mail:** yeganememmedova.doc@gmail.com
**Redaksiyaya daxil olub:** 05.06.2024